# *FİLOLOGİYA ELMLƏRİ*

## Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət dili siyasəti: fəlsəfi aspekt

**Üzeyir Balakişiyev**
*Gəncə Dövlət Universitetinin müəllimi*
**Yaqut Quliyeva**
*Gəncə Dövlət Universitetinin müəllimi*

**Rəyçilər:** filol.ü.e.d. F.Mustafayev,
filol.ü.e.d. V.Ömərov

**Açar sözlər:** Azərbaycan Xalq Cumhuriyyəti, dövlət dili, Azərbaycan dili, "AXC ili", dil siyasəti, parlament, ikidillilik

**Ключевые слова:** Азербайджанская Демократическая Республика, государственный язык, Азербайджанский язык, «год Азербайджанской Демократической Республики», языковая политика, парламент, билингвизм

**Key words:** Azerbaijan Democratic Republic, state language, Azerbaijani language, "Year of Azerbaijan Democratic Republic", language policy, parliament, bilingualism

Azərbaycan dövlət dili siyasəti tarix boyu dövlətçiliyin tərkib hissəsi kimi çıxış etmişdir. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyəti dövrü müstəqil milli demokratik dövlət prinsipləri və tətbiq etdiyi idarəçiliyilə ölkəmiz yalnız Azərbaycan üçün deyil, bütün Şərq və Asiya ölkələri üçün örnək olmuşdur.

Müstəqil Azərbaycan Respublikasının tarixin ən çətin şəraitində qədəm qoyduğu ilk günlərdən dövlət dili haqqında qərar gerçəkləşmişdir.

Müsəlman Şərqində ilk demokratik respublika sayılan Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini, azadlığını qoruyub saxlamaq və inkişaf etdirməkdən ötrü cəmiyyət həyatının başlıca istiqamətləri, o cümlədən dövlət dilinin daha da təkmilləşdirilməsi istiqamətində bir sıra siyasi-mədəni quruculuq işləri həyata keçirirdi. Bu taleyuklü işlər içərisində dövlət dili və onun dövlət quruculuğu prosesində, elmdə, təhsildə, başqa sözlə, maddi və mənəvi mədəniyyət sahələrində tətbiqi xüsusi əhəmiyyət kəsb edirdi. Ümumiyyətlə, cəmi 2 ildən də az bir müddətə güclü Azərbaycan dövləti qurmaq məqsədi ilə siyasi səhnəyə atılmış Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyəti dövründə, yəni qısa bir zaman kəsiyində xalqın azadlığında, onun müstəqilliyinin həyata keçirilməsində son dərəcə prinsipal əhəmiyyət kəsb edən dövlət atributlarının və rəmzlərinin - himninin, gerbinin, dövlət bayrağının, dövlət rəhbərinin statusu və ən nəhayət dövlət dilinin rolunu çox düzgün qiymətləndirərək bu istiqamətdə çox böyük işlər görmüşdür. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən dövlət quruculuğu istiqamətində aparılan məqsədyönlü islahatlar içərisində müstəqil dövlətin dil siyasəti, daha da dəqiqləşdirsək, dövlət dilinin çoxmillətli Azərbaycanda oynadığı rol daima diqqət mərkəzində olmuş, digər məsələlər fonunda daima ön plana çəkilmişdir.

1918-ci il iyunun 27-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Kabinetinin dövlət dili ilə bağlı hesabatı dinlənilərək milli maraqlarımıza uyğun olan bir sənəd qəbul etdi: «Türk dili (Azərbaycan dili – Ü.B,Y.Q.) dövlət dili hesab edilsin» (5, 105). Azərbaycan Xalq

Cümhuriyyətinin dövlət quruculuğunun son dərəcə mühüm sahələrindən hesab etdiyi ana dilimizə dövlət statusu verməsi, dil siyasətinin digər quruculuq məsələləri ilə yanaşı ön plana çəkməsi bir daha əyani şəkildə sübut edir ki, cəmi 1 il 11 ay yaşamış müsəlman dünyasının ilk demokratik dövləti – Azərbaycan Xalq Cümhuriyyəti siyasi ömrünün qısa olmasına baxmayaraq, bu müddət ərzində xalqın və dövlətin milli maraqlarına sözün həqiqi mənasında böyük töhfələr vermişdir.

Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə kargüzarlıq, dəftərxana dili kimi Azərbaycan dilinin bütövlükdə tətbiqi həm nəzəri, həm də praktiki baxımdan bir sıra obyektiv və subyektiv çətinliklər yaradırdı. Əvvəla ona görə ki, Çarlıq dövründən 1918-ci ilədək bütün dövlət strukturlarında, o cümlədən elmdə, təhsildə və məktəblərdə tədris rus dilində aparılırdı. Həmçinin dövlət müəssisələrində işləyənlərin böyük əksəriyyəti rusdilli idilər. Bundan başqa, parlamentdə, hökumətdə çalışan yüksək rütbəli şəxslərin – nazirlərin bir çoxu vaxtilə Rusiyada təhsil aldıqlarına görə yüksək məclislərin kürsülərindən xalqa rus dilində müraciət edilirdi. Daha dəqiq desək, istər hökumət, istərsə də parlamentdə xalqı təmsil edən nümayəndələr bir çox hallarda dövlət dili sayılan Azərbaycan dilindən deyil, rus dilindən istifadə edirdilər. Dillə bağlı yaranmış bu vəziyyət Azərbaycan dilinin dövlət dili kimi praktik tətbiqini olduqca aktuallaşdırır, dövlət dili haqqında qəbul edilmiş sənədə belə bir əlavə olunmasını tələb edirdi: «Gələcəkdə hüquq, inzibati və digər vəzifələrə bu dildə (Azərbaycan dilində –Ü.B,Y.Q.) savadlı olan şəxslərin yerləşməsi mümkün olana qədər hökumət müəssisələrində rus dilindən istifadəyə imkan verilsin» (5, 106). bu məsələdə diqqəti cəlb edən əsas məqam ondan ibarətdir ki, Demokratik Cümhuriyyətin rəhbərliyi yerli şəraiti, situasiyanı nəzərə alaraq dildə bilinqvizm siyasəti yeritsə də, əsasən Azərbaycan dövlət dilinin tətbiqi işinin yaxşılaşdırılmasını əsas götürərək obyektiv zərurətdən doğan və cəmiyyətin milli dövlət maraqlarına tamamilə uyğun gələn azərbaycanlaşma siyasətini uğurla həyata keçirirdi. Bu istiqamətdə konkret olaraq görüləcək tədbirlər aşağıdakılardan ibarət idi:

1. Azərbaycan dilində tədrislə məşğul olmaq və dərs demək qabiliyyəti olan vətəndaşları müəllim kimi hazırlamaq;

2. Azərbaycan dilində ümumtəhsil, peşə və ali məktəblər açmaq, tədris işini gücləndirmək məqsədi ilə qardaş Türkiyə Respublikasından bir qrup müəllim heyəti Azərbaycana dəvət etmək: kitab və kağız ləvazimatının çatışmamasını nəzərə alıb, dost ölkə - Türkiyəyə bu məsələ ilə bağlı müraciət etmək.

Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Azərbaycan dilinə olan dövlət qayğısı cəmiyyət həyatının bütün istiqamətləri üzrə, mütəmadi, məqsədyönlü şəkildə həyata keçirilirdi. Təsadüfi deyil ki, 1919-cu il fevral ayının 10-da Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri, artilleriya generalı S. Mehmandarov orduda Azərbaycan dövlət dilinin hamılıqla öyrənilməsi və işlədilməsi ilə bağlı göstəriş vermişdi: «Başqa millətlərdən olan zabitlərə türk (Azərbaycan – ) dilində hərbi əmrlərə aid sözləri öyrənmələri üçün bir ay vaxt verirəm. Göstərilən ay müddəti keçəndən sonra kimlər bu sözləri öyrənməsə, vəzifəsindən azad olunmağa təqdim ediləcəkdir» (5,119).

S. Mehmandarovun bu əmrində diqqəti cəlb edən məqam odur ki, sabiq müdafiə nazirinin bu əmri verilərkən Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından cəmi 8 ay keçmişdi. Bütün bu deyilənlər bir daha sübut edir ki, müsəlman Şərqində ilk müstəqil demokratik respublika olan AXC qısa müddət və zaman kəsiyində Azərbaycan dilinin dövlət dili səviyyəsində tətbiqi istiqamətində diqqətə layiq və səmərəli işlər görmüşdür. Bakı Dövlət Universitetinin və Pedaqoji İnstitutun açılması təşəbbüsləri gerçəkləşdi.

Eyni zaman da, qeyd etmək lazımdır ki, adı çəkilən bu təhsil ocaqlarının açılmasında Azərbaycan dilində dərs deyəcək müəllimlərin azlığı və Azərbaycan dilinin tətbiqində maddi-texniki bazanın zəif olması ilə bağlı müəyyən fikir ayrılıqları mövcud idi. Azərbaycan dilinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə rəsmi dövlət dili olması məsələsinə toxunan sabiq daxili işlər naziri B. Cavanşirov yazırdı: «Əhalinin böyük əksəriyyətinin azərbaycanlılardan ibarət əksər yerlərdə kargüzarlıq və dəftərxana işi türk (Azərbaycan –) dilində aparılırdı. Bu yerlərdə məsul vəzifələri əsasən azərbaycanlılar tutur. Əhalisi beynəlmiləl, yəni qarışıq olan bölgələrdə isə dövlət strukturlarında problem yaranmasın deyə tədricən milliləşmə – yəni azərbaycanlaşma siyasəti həyata keçirilir. Başqa sözlə, insanlar öz mənəvi ehtiyaclarını bilavasitə dövlətə çatdırmaq şansını əldə edirlər… Azərbaycanın dövlət strukturlarında hələlik rus dilinin tətbiqi ona olan sevgidən irəli gəlmir. Sadəcə bunu dövlətin bu günkü maraqları tələb edir. Bu proses əlbəttə çox çəkə bilməz. Türk dilini bilməyən yüksək vəzifə sahibləri tutduqları vəzifədə çox qala bilməyəcəklər iki ildən sonra Azərbaycan müəssisələrinin hamısı milliləşəcəkdir. Bizdə dövlət dilini bilməyən məmurların sayı çox olduğundan Maarif Nazirliyi onlara kömək məqsədi ilə Azərbaycan dilini öyrənən axşam kursları açmaq fikrindədir (3, 2).

Bildiyimiz kimi, 1918-ci il iyunun 27-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti türk (Azərbaycan) dilinin dövlət dili hesab edilməsi barədə qərar qəbul etmişdi. Dövlət qərarında "lisan türk dili qəbul edilərək irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da mücadilə edilməsi də nəzərdə tutulurdu. Qərar Azərbaycan türklərinin tarixi haqqını özünə qaytararaq türk dilini dövlət dili kimi təsbit etmişdir. Ölkənin rəsmi orqanlarında, dövlət idarə və müəssisələrində, daxili idarəçilik işlərində, xarici dövlətlərlə diplomatik yazışmalarda Milli Şura adlanan parlamentdə türk dilini rəsmiyyətə qovuşdurmuş oldu" [5, 15].

Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyinin keçirilməsi münasibətilə imzaladığı sərəncamda deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi. Azərbaycanda sovet hakimiyyəti quruldu. 1922-ci ilin dekabrında Sovet Sosialist Respublikaları İttifaqı yarandı və Azərbaycan bu ittifaqa daxil oldu. SSRİ tərkibində olduğu dövrdə Azərbaycan bir çox dövlətçilik atributlarını saxlaya bilmiş, iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmişdir. 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir" [1].

2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir: "2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi

tamam olur. Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır. 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü... Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.” [2]

Dil xalqın varlıq formalarından biri, dövlətin rəsmi atributlarındandır. Azərbaycan Demokratik Respublikasının Parlamentinin dili Azərbaycan dili idi. Ancaq rus dilində də çıxışlar olur, bəzi sənədlər iki dildə oxunur, lakin sənədlər mütləq Azərbaycan dilinə tərcümə edilirdi. Parlamentin çap olunmuş sənədlərində rus dilində çıxışların mətnlərinə təsadüf edilmir.

**Məqalənin aktuallığı.** Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin ikidillilik şəraitində Azərbaycan dilinə dövlət dili statusu verilməsi sahəsində fəaliyyətinin hərtərəfli tədqiq olunduğu məqalə aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi**. ictimai həyatın bütün sahələrində Azərbaycan dilinin dövlət dili kimi tətbiq edilməsi üçün Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin gördüyü tədbirlərin kompleks tədqiqi məqalənin yeniliyinə dələlət edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən dövlət dili siyasətində istifadə oluna bilər. Məqalə müəllimlər, tələbələr, geniş oxucu kütləsi üçün də praktiki əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyinin keçirilməsi münasibətilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı. “Res-publika” qəz., 1998, 31 yanvar.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncamı.
3. Əhmədova S. Heydər Əliyevin dil siyasəti. Bakı: MBM 2008.
4. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. Bakı: ADU nəşriyyatı, 1976.
5. Hacıyeva X.D. Dövlət dili və etnodil məsələləri (sosiolinqvistik tədqiqat təcrübəsi). Bakı, 2004.

**У. Балакишиев, Я. Кулиева**

## Языковая политика АзербайджанскойДемократической Республики: философский аспект

### Резюме

В статье рассматривается политика государственного языка, проводимая в период Азербайджанской Народной Республики с социально-философского аспекта. Автор прокомментировал деятельность правительства Азербайджанской Республики в области предоставления статуса государственного языка азербайджанскому (тюркскому) и меры, принимаемые государством для применения государственного языка во всех сферах общественной жизни в двуязычных условиях. Политика государственного языка Азербайджанской Демократической Республики отражена в указе общенационального лидера Гейдара Алиева и его достойного политического наследника, президента Ильхама Алиева и в декларации президента 2018 года объявили как «Год Азербайджанской Демократической Республики».

**U. Balakishiyev, Y. Quliyeva**

## Language policy of Azerbaijan Democratic Republic: philosophical aspect

### Summary

The article examines the state language policy carried out during the period of the Azerbaijan Democratic Republic from a socio-philosophical aspect. The author commented on the activities of the Government of the Republic of Azerbaijan in the field of state language status in Azerbaijani language in bilingualism and the measures taken by the government to apply the state language in all spheres of public life. The state language policy of the Azerbaijan Democratic Republics reflected in the decree of the national leader Heydar Aliyev and his decent political heir, President Ilham Aliyev and declaration of 2018 as the "Year of Azerbaijan Democratic Republic".

**Redaksiyaya daxil olub:** 30.01.2018